UOT 316.334:7; 316.334:008

# MƏDƏNİYYƏT VƏ MENTALİTET DİALEKTİKASI: SOSİAL-FƏLSƏFİ PROBLEM KİMİ

**S.H.ƏLİYEVA**
***Bakı Dövlət Universiteti***
***sahibe_eliyeva@mail.ru***

*Mentalitetin sosial-fəlsəfi mahiyyətinin nəzəri-metodoloji tədqiqində mədəniyyət sosial anlayış kimi araşdırılır. Bu məqalədə xalqların milli mədəniyyətin mental xüsusiyyətlərini əks etdirən cizgiləri öz əksini tapmışdır.*

**Açar sözlər:** Relyativizm, absoluyatizm, universalizm, introvert, innovasiya, kanonik cəmiyyət

Mədəniyyət cəmiyyətə əqli, düşüncə tərzini müəyyən edən intellektual modelləri təqdim edir, lakin bunlardan istifadə isə sosium üzvlərinin bacarıq və imkanlarından asılıdır. Ən geniş mənada götürsək, mədəniyyət xalqın milli varlığının təzahür faktorudur və bu faktor hər bir xalqın mentalitetini müəyyənləşdirməklə kifayətlənməyib, onun tarixi varlığının mahiyyətinə, bütün sosial-psixoloji reallıqlarına nüfuz edir. Daha dəqiq deyilsə, bunun sayəsində xalqın, millətin mentalitetinin nüvəsini təşkil edən mədəni aləmin fenomeni formalaşır. Məhz bu xarakterli mentaliteti dərk etmək üçün dövrün mədəni dəyərlərini istehsal edən sosial institutların fəaliyyətini, ideya və əqidələrinin formalaşdırdığı psixoloji sosiomədəni mühiti öyrənmək lazımdır. Qeyd edək ki, elmi ədəbiyyatda işlədilən «total tarix», yaxud da «total mədəniyyət» bütün bəşər tarixi, ya da dünya mədəniyyəti anlayışını bildirmir. Məsələ bundadır ki, qısa bir tarixi kəsim, yaxud konkret bir regionda formalaşmış mədəniyyət də total xarakter kəsb edə bilər.

Daha dəqiq desək, bu totallıq müəyyən məkan və zamanda insanların həyat fəaliyyətinin tarixçiyə və filosofa əlçatan olan bütün tərəflərini imkan daxilində, müxtəlif müstəvilərdə müşahidə olunub başa düşülməsi prosesidir. İkinci bir tərəfdən, «total» idrak insanların həyatını siyasi, təsərrüfat, dini sahələrə, yaxud hansısa məxsusi tarixi dövrə bölmək prinsipini qəbul etmir. Belə yanaşmanın funksiyası zəngin tarixi mənzərəni mümkün olan bütün səviyyələrində tədqiq etməkdir. Bununla bağlı, ümumi şəkildə desək, L.Fevr hesab edir ki, sosial tarix, cəmiyyətin tərkibinin, onu təşkil edən siniflərinin, təbəqə və qrupla-

rının, münasibətlərinin təhlili mühüm əhəmiyyət kəsb etmir, əsas məsələ tarixi-fəlsəfi idrak obyekti olan insanların tarixidir. Çünki tarixi inkişafın hərəkətverici qüvvələri məhz psixikaya, fikirlərə, hisslərə malik olan insandır [5, 501].

Qeyd edək ki, öz funksional mahiyyətinə görə relyativizm idrakın, dünyagörüşü sistemlərinin, mədəniyyətin təhlili və şərhi prinsipi olan bu metodun başlıca vəzifəsi hadisələrin keyfiyyət qeyri-sabitliyini, onların müxtəlif şəraitlərdən və vəziyyətlərdən asılılığını mütləqləşdirməkdir [10, 263]. Dialektik təfəkkürün mühüm çaları olan bu prinsip daxili ziddiyyəti ilə seçilir. Belə ki, relyativizmə görə, o, eyni vaxtda hər bir elmi nəzəriyyənin, əxlaqi normanın, yaxud mədəni ənənənin dəyişkənliyini və qeyri-təkmilliyini qeyd edir, başqa tərəfdən, bu və ya digər sosial hadisənin öz dəyərliliyini təsdiqləyir. Lakin relyativizmin mədəniyyətlər arasında fərqin olması ideyasına üstünlük verməsi olduqca dəyərli cəhətdir, çünki bununla mədəniyyətlərin mental fərqlərin mümkünlüyü mülahizəsi qeyd edilir. Bu baxımdan, Amerika sosioloqu R.Benediktin mədəniyyətlərin konfiqurasiyası, yaxud mədəni relyativizm konsepsiyası düşüncə mentallığı, intellektlə mental təcrübənin dialektikası baxımından maraqlıdır. Sosioloq tədqiqatlarında belə bir fikri əsaslandırmağa çalışır ki, mədəni dəyərlərin məcmusu və şəxsiyyət eyniyyət təşkil edirlər, mədəniyyət cəmiyyətin şəxsiyyətidir.

Absolyutizm, yaxud mədəni mütləqlik cərəyanının tərəfdarları isə mədəniyyətlər arasındakı oxşarlıqları mütləqləşdirir, başqa sözlə, onlar hər bir mədəniyyət üçün səciyyəvi olan cəhətləri inkar edərək, mədəni dəyərlər arasındakı mental fərqləri nəzərə almırlar. Məsələn, mentallığı öyrənmək baxımından belə bir maraqlı məqama diqqət yetirək: absolyuatistlərin fikrincə intellekt kimi sosial psixoloji element də bütün mədəniyyətlərdə eynidir. Onlar burada yalnız kəmiyyət fərqlərinin olduğunu israr edirlər. Daha dəqiq desək, onların fikrincə mədəniyyətlər eynidir, lakin qavrayışda qeyri-bərabərdirlər. Başqa sözlə, eyni bir mədəni fenomen müxtəlif mental müstəvisində qavranılır. Lakin absolyuatizmin qüsuru bundadır ki, o bütün mədəniyyətlərə ABŞ və Qərbi Avropa gerçəkliyinin dəyərləri baxımından yanaşaraq digər xalqların həyat tərzilə təzad təşkil edən standartlara üstünlük verir. Bu istiqamət özünün ziddiyyətli əksini «əks absolyutizm» təlimində tapmışdır. Amerika psixoloqu M.Koulun fikrincə, mədəniyyətlər bərabər və eynidir, lakin fərqlərin səbəbini, psixoloji hadisələrin mahiyyətində, onların daxili oxşarlığını üzə çıxaran mexanizmlərin təkmil olmamasında axtarmaq lazımdır.

Universalizm cərəyanının nümayəndələri isə israr edirlər ki, insan psixikası mühüm xarici fərqlərlə kifayət qədər vəhdətdədir. Bu konsepsiyada belə bir mülahizə əsaslandırılır ki, planetin hər yerində insanların düşüncə və davranışlarında təzahür edən sosial psixoloji proseslər mahiyyətcə eynidir. Başqa sözlə, mədəniyyətlərin özləri bərabər əsaslarına görə eynidirlər, zahirən yalnız müxtəlifdirlər. Sosial intellekt və mentallıq ölçülərində bir məsələ maraq doğurur: mədəniyyət insanın daxili psixi aləminə nə dərəcədə və hansı

vasitələrlə təsir edir? Bu meyarları düzgün dərk etmək sayəsində tədqiqatçı hansı psixoloji anlayışların həqiqətən universal olmasını və hər bir mədəniyyətdə insanın davranışının təsvirində onlardan necə istifadə edilməsini anlaya bilər.

Etiraf edək ki, müasir sosial psixologiya elminin anlayışlar aparatında özünə yer tapmış «sosial qavrama» kateqoriyası daha çox metaforanı xatırladır. Belə ki, həmin anlayışda təkcə sosial obyektlərin qavranılması prosesini əks etdirmir, burada həm də təfəkkür elementləri, onların intensiv emosional rəngarəngliyi də ehtiva olunmuşdur. Bu məsələyə tədqiqatçı N.Andreyevanın «Sosial psixologiya» əsərində xüsusi diqqət yetirilir. Müəllif primitiv insanlarla müasir insanların mentallığını təşkil edən təsəvvürlərin oxşarlığını xüsusi vurğulayır [12, 1]. Eksperimental psixologiya sübut etmişdir ki, müasir elmlərin fantastik miqdarda elmi biliklər toplamasına baxmayaraq, mentalitetin nüvəsini təşkil edən sosial təsəvvürlər bu gün də subyektiv məzmun daşıyır. Məsələ bundadır ki, sosial təsəvvürlərdə kök salmış xürafat, stereotiplər, xülya baxışları insanlara müasir dünyanın bənzərsizliyini adekvat qavramağa mane olur. Düşüncələrdə də bir çox təsəvvürlər mistik məzmundan xilas ola bilməmişdir. Dini baxışların gerçəkliklə ziddiyyət təşkil etməsi dediyimizə nəinki əyani sübutdur, həmçinin mentalitet probleminin daha dərindən öyrənilməsi üçün mühüm stimuldur.

Təsadüfi deyildir ki, tarixçi və sosioloqlar 60-cı illərdə tarixi hadisələrin mahiyyətinə aydınlıq gətirmək üçün orta əsr və yeni dövrün sakinlərinin mədəniyyətini yeni metodologiya əsasında öyrənməyə başlamışlar. Bu işdə fransız tarix fəlsəfəsinin görkəmli nümayəndələrinin əvəzsiz xidmətləri olmuş Lüsyen Fevr və Mark Blok Erkən və Klassik orta əsrləri, İntibah dövrünü öyrənərkən mentalitet kateqoriyasından mühüm metodoloji priyom kimi istifadə etmişlər. Onların araşdırmalarında daha mürəkkəb və inkişaf etmiş cəmiyyətlərin öyrənilməsində mentalitet anlayışından istifadə özünü tamamilə doğrultmuşdu. Kulturoloqlar belə bir ideyadan çıxış edirlər ki, bütün təbiətşünaslar, istər iqtisadçılar, tarixçilər, istərsə də sosial hərəkatları öyrənən mütəxəssislər, etnoqraflar insanların düşüncə tərzinin mental xüsusiyyətləri ilə məşğul olmalıdırlar.

Bir daha xatırladaq ki, M.Bloka, eləcə də L.Fevrə etnoloq Levi-Bryulun «İbtidai təfəkkür» (1922) əsəri şəksiz təsir göstərmişdir. Hər iki nəzəriyyəçi L.Bryulun düşüncə və mülahizələri ilə tam razı olmasalar da, hər halda onun əsərindən bəhrələnmişlər. Onlar etiraf edirlər ki, mentalitet termininin birmənalı təsnifini, dəqiq tərifini vermək çox çətindir. Fransız tarixşünasları bunu «fikir yönümü», «ovqat», «kollektiv təsəvvürlər», «ağıl tərzi» və s. kimi mənalarda təqdim edirlər. Bizcə, «dünya yönümü» anlamı həmin terminin mənasını daha aydın açır. Mentalitet və mədəniyyət dialektikası bunu deməyə əsas verir ki, insan cəmiyyətində, onun mədəni həyatında fərdi şüuru strukturlaşdıran spesifik şərtlər sistemi üstünlük təşkil edir.

Beləliklə, mentalitet kateqoriyasının meydana gəlməsi tarixi-mədəni və sosial-psixoloji məkanda və dəyişən zamanda insanların təbiətini, müxtəlif cəmiyyətlərin mənəvi həyatının və onunla bağlı ənənəvi mədəni fəaliyyətini öyrənməklə bağlı olmuşdur [6, 135]. Təbii ki, bu tərif əhatəli deyildir. Mentalitetin sosial-fəlsəfi mahiyyətini dərk etmək üçün ictimai həyatın mühüm cəhətlərini daha dərindən öyrənmək lazım gəlir. Məsələn, sosioloq A.Burdye hesab edir ki, mentalitetdə sosial qrupun özü haqqında təsəvvürləri cəmlənmişdir [2, 271].

Bu konseptual mülahizələr mentaletin sosial-fəlsəfi məcrada öyrənilməsini bir daha aktuallaşdırır. Bizcə, mentalitetin sosial-fəlsəfi aspektlərdə tədqiqi bu məcrada daha məqsədəuyğundur: ilkin mərhələdə cəmiyyət üzvlərinin və sosial təbəqələrin ictimai əməyə, mülkiyyətə, var-dövlətə və yoxsulluğa münasibəti, sosial bütövlüyün obrazı bu işdə siyasi-hüquqi biliklərin və milli adətin təbiətini, hüququn sosial tənzimləmə funksiyasını öyrənmək, fərdin dünyanın sosiomədəni mənzərəsinin strukturunda yerini müəyyənləşdirmək, bununla da mentalitet və mədəniyyət dialektikasının real mahiyyətini başa düşməkdir.

Bu gün mentalitetin mədəni-etnik səviyyədə öyrənilməsini aktual sayan tədqiqatçılar insan və onun maddi həyatının və mədəni ənənənin, dünyanı qavrama səviyyəsi ilə səbəblənən davranışının tədqiq olunmasını, yəni mentalitetin müasir fəlsəfi ölçülərdə tədqiqini mədəni-tarixi antropologiya, yaxud antropologiyaya yönəlmiş tarix elmlərinin elmi anlayışları aparatından bəhrələnməyi, xalqların tarixi həyatının sosial, mədəni-dini və təbii, bioloji aspektlərinin vəhdətdə öyrənilməsini ön plana çəkirlər. Bizim fikrimizcə, mədəniyyətlə mentalitetin sosial fəlsəfi məsələlərinin tədqiqi konkret sosial birliyin insanlarının həyat tərzini və təfəkkürünü öyrənməklə yanaşı, eyni zamanda ictimai sistemin ayrılmaz komponenti kimi araşdırılması deməkdir.

Beləliklə, “Mədəniyyət-mentalitet” problematikasının mahiyyətini dərk etmək baxımından belə nəticəyə gəlmək olur: etnik şüurun normal fəaliyyətini təmin edən sosiomədəni mühit olmalıdır. Məhz belə bir şəraitdə həyat tərzi pozitiv məzmun kəsb edə bilər. Məlum olduğu kimi sosiomədəni seçimin müəyyənləşməsində və dəyişən sosial reallıqlarda öz identifikasiyasını dərindən başa düşməsində məhz şəxsi identiklik (bir sabit amil kimi) aparıcı və istiqamətləndirici şərtdir. Real təcrübədən göründüyü kimi, başlıca məsələ sosial birliklərin transformasiyası şəraitində şəxsiyyət həmişə elə qrupla özünü eyniləşdirir ki, burada o özünü bir mədəni varlıq kimi müəyyənləşdirmə, özünütəsdiq problemini həll etsin, yəni bu identifikasiya adekvat dəyişən reallıqlarda ona «Mən kiməm?» sulaına cavab tapmaqda yardımçı olsun. Bu sualın cavabı ona öz həyat fəaliyyəti üzərində nəzarət etməyə kömək edər və deməli, dəyişən dünyada insanın uyğunlaşmasına imkan verər. Bu isə son dərəcə mürəkkəb sosiomədəni proses olduğundan fərd heç də həmişə buna arzu etdiyi dərəcədə nail ola bilmir, daha doğrusu, o, həyatın təqdim etdiyi cəlbedici

dəyərlərin hamısını mənimsəyə bilmir. Şəxsiyyətin həyat tərzini, onun sosial davranışlarını, son nəticədə mədəni inkişafının məhsulu olan mentalitetinin məzmununu müəyyənləşdirən məhz həmin araşdırdığımız amillərdir.

Sosiomədəni praktikanın təkamülü və inkişafı prosesi hər bir millətin ictimai şüurunda sosial yaddaşında kök salmış neqativ stereotiplərin aradan qaldırılması, xalqın milli mənlik şüurunda sağlam mental xüsusiyyətlərin təşəkkülü cəmiyyətin sosial təbəqələrinin ümumi səyi və bacarığından, xüsusilə xalqın potensial enerjisini dövrün qlobal sosiomədəni problemlərinin dərkinə və milli ideya naminə birləşdirməyə, cəmiyyətin sosial problemlərinin həllinə səfərbər etməyə qadir ideologiyanın formalaşmasından xeyli asılıdır.

Siyasi mədəniyyətdə mentalitet sosial-siyasi qrupun, yaxud təşkilatın üzvləri üçün ümumi, ətraf sosial-siyasi reallığı eyni cürə qavramağa, qiymətləndirməyə, həmin gerçəklikdə təşəkkül tapmış normalara və darvanış tərzinə uyğun davranışı birlikdə etməyə, lakin bir-birini adekvat başa düşməyə imkan verən siyasi- psixoloji analyışdır. Belə halda mentalitet təşkil amili kimi çıxış edərək insanların xüsusi siyasi-psixoloji və mədəni ümumiliyini yaradır. Sosial-siyasi funksiyası baxımından bu və ya digər qrup üçün ümumi olan mentalitet həmin qrupların mövcudluğunda varisliyi saxlamaq və buraya daxil olanların davranışının sabitliyi mexanizmi kimi çıxış edir. Mentalitetin bu «xidmətinə» nisbi sabitlik, xüsusilə böhran hallarında psixoloji ehtiyac duyulur. Böhran vəziyyətlərinin mentalitetə dağıdıcı təsiri onun bütövlüyünü və insanların birləşdirici – unifikasiyalı xarakterini sarsıdıcı vəziyyətə salır. Ekstremal situasiyalarda isə qrup üzvlərinin mentaliteti sabitsizliyə düçar olur, sosial-psixoloji davranış rejimi parçalanır. Belə ki, neqativ sosial-mənəvi şəraitində yaranmış belə bir psixoloji anomiya çoxlu formada kənaraçıxma (deviant) davranışa və kəskin ruhi böhran vəziyyətinə gətirib çıxarır, qrupda destruktiv siyasi davranışı meydana gətirir və beləliklə də, ümumiliyin dağılması ilə nəticələnir.

Belə halda mədəni mühitdə «böhranlı mentalitet» yaranır, yaxud şüurun inteqrativliyi itmiş olur, əvvəllər insanların sabit sosiomədəni davranışını yönümləndirən sosial-siyasi birliklər şüurun sturkturunun, bütövlükdə psixikasının dağılmasını ifadə edir. Böhranaqədərki, kifayət qədər sabit və sturkturlaşmış mentalitetdən fərqli olaraq, böhranlı mentalitet axınlı, qeyri-sabit xarakter daşıyır. Belə tip mentalitet totalitarizmdən demokratiyaya keçid dövründə özünü xüsusilə büruzə verir. Həmin mərhələdə sosial-siyasi plüralizm, çoxukladlı iqtisadiyyat, çoxpartiyalılıq kimi fenomenlərin meydana gəlməsi sovet mentalitetinin daşıyıcısı üçün yeni hadisələr, həmçinin qeyri-müəyyənliklər yaratmış olur. Bu isə «insan amili» problemində, cəmiyyətin ictimai şüurunda, şəxsiyyətin mentalitetində yeni tipli münasibətin formalaşmasını zəruri edir. Postsovet məkanında cərəyan edən transformasiya hadisələri sübut edir ki, mentalitetin özünün dəyişməsi uzun sürən və ağrılı sosiomədəni prosesdir. Bunun başlıca səbəbi köhnə psixoloji yükdən azad olmaq cəhdi yolun-

da köhnə mental xüsusiyyətlərin sərt müqavimət göstərməsidir. Məsələ burasındadır ki, köhnənin müqavimətinin aradan qaldırılması prosesinin özü labüd destruktiv halları meydana gətirir. İnsanların zorla yeni şəraitə (əslində hələ yeni şərait yaranmamış və bu yeniliyi «yuxarıdan» həyata keçirilməsi ilə meydana çıxan gərginliklər) uyğunlaşması, onların uzun sürən transformasiya proseslərinin bir çox məqamlarına hazır olmaması bu günədək ictimai şüurun axıra kimi dərk etmədiyi çətinliklər yaradır. Belə çətinliklər ona gətirib çıxarır ki, ictimai və mədəni dəyişikliklər cəmiyyətin kütləvi mentaliteti tərəfindən dəstək almır və sosiumun üzvlərinin psixologiyası əlavə müqavimətləri aradan qaldırmaq prosesində mühüm sosial-siyasi və mədəni konfliktlərlə üzləşməli olur.

Müasir fəlsəfi, psixoloji, sosioloji, etnoloji ədəbiyyatda mentalitet anlayışı ilə mədəniyyətin qırılmaz əlaqəsi ətrafında müxtəlif mülahizələr və konsepsiyalar irəli sürüldüyü faktına bir daha qayıdaraq qeyd edək ki, kulturoloq P.S.Qureviçin fikrincə mentalitet dünyanın mənzərəsini yaradan və mədəni ənənəni, yaxud hər hansı insan birliyini birləşdirən bütöv fikirlərin, etiqadların, ruhi vərdişqlərin məcmusudur. [5, 238] Etnoloq S.V.Luryenin fikrincə, mentalitet ənənənin maddiləşməyən tərkib hissəsidir. [7, 44] Müəllif konsepsiyasını daha geniş açıqlayaraq mentaliteti eyni zamanda ənənəvi şüur forması kimi təqdim edir, onu sosiallaşma prosesində ötürülən və konkret şəraitdə mədəni davranış norma və modellərini özündə ehtiva edən, dünyanın etnik mənzərəsini əks etdirən dünyagörüşü kimi qiymətləndirir [8, 228].

Mentalitet anlayışının siyasi aspektini işləyən tədqiqatçılar L.Y.Qozman, E.B.Şestopal bu kateqoriyanı siyasi şüurun, siyasi psixologiyanın formalaşmasındakı rolunu bütövlükdə siyasi mentalitet fenomenin öyrənilməsinin vacibliyini xüsusi vurğulayırlar [3.s.132-146]. Ensiklopedik lüğətlərdə rast gəlinən definisiyalara görə mentalitet anlayışı ən ümumi şəkildə müxtəlif psixi xassə və keyfiyyətlərin, xüsusiyyətlərin və təzahürlərin özünəməxsus tərzi, spesifik formada təşkili və məcmusudur [9, 174-176].

Tarix ədəbiyyatında «dünyanı qarvama» və «mənlik şüuru» anlayışları mədəniyyətlə mentalitetin dialektikası kontekstində araşdırılır. Birinci anlayış yalnız dünyanın mənzərəsini deyil, həmçinin dünya haqqında təsəvvürlərlə şərtlənən subyektin hərəkətini özündə ehtiva edən fəal qavramanı nəzərdə tutur. Başqa sözlə, «ikitərəfli» elementin daşıyıcısı kimi iştirak edir: dünya insana təsir edir, o isə ətraf aləmin qavramasına uyğun olaraq həmin dünyada özünün davranışını qurur. İkinci anlayışda isə ətraf aləmdə və cəmiyyətdə insanın öz yerini və rolunu dərk etməsi ideyası ehtiva olunur [4, 3]. Bundan əlavə, bu dialektik vəhdət eyni zamanda cəmiyyətin öz təşkilinin əsası, mədəni ənənə üçün karkas rolunu oynayır. Obrazlı deyilsə, mentaliteti bir bina kimi təsəvvür etsək, deyə bilərik ki, onun təməlini «kollektiv bitəəlşüur» sferası, tavanını isə fərdin mənlik şüuru təşkil edir. Mentalitetin strukturunu «dünyanın mənzərəsi» və «davranış kodeksi» təşkil edir. Onların qovuşduğu sahə isə «şüurun paradiqması» deyilən fenomendir [11, 4]. Ümumiyyətlə, tədqiqatçılar

etiraf edirlər ki, mentalitet kateqoriyası çox az öyrənildiyindən onun definisiyası barədə yekdil fikrə gəlmək mümkün olmur. Olur ki, mentalitet anlayışının metodoloji baxımdan əsaslandırılmamış tərifinə daha çox rast gəlmək olar. Ən ümumi halda mentalitet deyilərkən həmişə psixikanın dərk olunmaz və sabit qatı başa düşülür. Həmin psixi qata müəyyən fikir modelləri də ehtiva edilir. Lakin bu cür dəyişməz fikir formaları hələ ki, sübut olunmayıb. Bu, xüsusi elmi- eksperimental əsaslandırılma tələb edir. Deməli, belə nəticəyə gəlmək olar ki, hələlik «mentalitet» anlayışının qənaətedici tərifi yoxdur.

Məlumdur ki, sosial psixologiyanın mühüm sahəsi sayılan milli psixologiya sosiomədəni hadisədir. Şəxsiyyətin həyatına, cəmiyyətin sosial-mənəvi təsir gücünə malikdir. Bu kontekstdə milli psixologiyanın əks təsiri reaksiyasının proqnozlaşdırılması mühüm əhəmiyyət kəsb edir.

Nəzərə alınmalıdır ki, mentalitetlə mədəniyyətin dialektikasının dolğun alınmasında milli psixologiyanın tədqiqi metodologiyasının, onun ictimai hadisələr sistemində funksiyasının mahiyyətini və struktur elementlərinin öyrənilməsi vacib sosiomədəni problemlərdən biridir. Müasir sosiomədəni transformasiya prosesləri ,millətin milli psixologiyasının təşəkkülü şəxsiyyətin yeni mədəni mühitdə inkişafı üçün, eləcə də ortaya çıxan mədəni problemlərin metodoloji baxımdan düzgün həlli üçün yeni imkanlar yaradır.

Fərdlərin həyatında təzahür edən milli fərqlər sosiomədəni təyinatına görə, digər xalqların nümayəndələrinə nifrət, inamsızlıq mənbəyi olmamalıdır. Xalqların yüksək və yaxud aşağı həyat səviyyəsinə malik olması onların mədəniyyətinə, irsi mənsubluğuna neqativ yanaşmağa əsas vermir. Buna görə milli psixologiyanın sosial-tarixi səbəbləndirən obyektiv amilləri bir xalqın milli xarakterinin digər xalqlara təsiri problemi araşdırılmasında mühüm yer tutur.

Xalqların mədəni inkişaf təcrübəsi göstərir ki, ictimai istehsalın, əmək münasibətlərinin xarakteri, millətin həyatına, dünyagörüşünün mental xüsusiyyətlərinə, mənəvi simasına, başqa xalqlarla sosiomədəni ünsiyyətinə mühüm təsir göstərir. Millətlər arasında münasibət və əlaqələr, məhsuldar qüvvələrin inkişaf səviyyəsinə, əmək bölgüsünün dərəcəsinə əhəmiyyətli təsir edir. Lakin təkcə bir millətin digər xalqlarla münasibəti deyil, bütövlükdə onun daxili strukturu istehsalın inkişafı səviyyəsindən və onun daxili münasibətlərindən asılıdır.

Ümumiyyətlə, milli psixologiyanın təhlilində mentalitet anlayışı ilə yanaşı milli mənlik şüuru məsələsi diskusiya xarakteri daşıyan problemlərdən biridir. Sosial-fəlsəfi tədqiqtalarda bir çox hallarda bu fenomen milli psixologiyanın sturktur elementi kimi öyrənilirsə də, digər müəlliflər bu mövqe ilə razılaşmırlar. Lakin tədqiqatçıların təhlili və çıxardığı nəticələr bizə belə bir qənaətə gəlməyə əsas verir ki, mentalitetin mahiyyətinin açılmasında mühüm metodoloji rol oynayan milli mənlik şüurunu milli psixologiyanın sturktur elementi hesab etmək mümkündür. Milli mənlik şüurunun təşəkkülü xalqın sosiomədəni inkişaf mərhələləri ilə sıx bağlıdır. Bəzi xalqlar üçün feodal

pərakəndəliyinə qarşı, digərlərindən ötrü kapitalizmə qarşı mübarizə, bir başqalarının tarixində isə milli azadlıq hərəkatıdır. Bu tarixi inkişaf məqamları xalqların həyatının bütün sahələrinin birləşməsinə, ümummilli mədəniyyətin, ədəbiyyatın və incəsənətin inkişafına kömək edərək, son nəticədə mənlik şüurunun formalaşmasına gətirib çıxarır. Belə bir nəticəyə gəlmək olur ki, milli mənlik şüuru öz milli mənsubluğunu, millətin mənafeləri naminə öz məsuliyyətini, ideyalar, ideoloqiya vasitəsilə sosial-etnik inkişaf prosesində öz yerini dərk etməkdir.

Müasir mənbələrdə mentalitetin sosial mahiyyətinin təşəkkülündə milli mənafelərin özünəməxsus dərki mühüm rol oynayır. Çünki psixoloji tələbatlar mentalitetin mahiyyətini tam açmır. Bu sahədə millətin iqtisadi, siyasi mənafeləri müstəsna rol oynayır. Milli mənafe obyektiv mövcuddur, onun formalaşmasında millətin şüuru və iradəsinin yeri xüsusidir.

Göründüyü kimi, milli psixologiyanın mühüm elementi olan və eyni zamanda onun formalaşmasında mühüm rol oynayan mentalitet mürəkkəb təbiətə malikdir, onun təşəkkülünə çoxlu sayda amillərin təsiri danılmazdır. Bu prosesdə milli psixologiyanın formalaşması və inkişafının ilkin sosiomədəni şərtlərinin təhlilində istifadə olunmuş metodoloji müddəalar və metodlar daha da təkmilləşdirilməlidir.

Mühüm məsələlərdən biri azərbaycanlı mentalitetinin zaman və məkanda tarixi təşəkkülünün xüsusiyyətləri problemidir.

Millətin, onun mənəvi-psixoloji həyatının formalaşması obyektiv dinamik prosesdir. Bu baxımdan formalaşdığı təbii şəraitin, iqtisadi münasibətlərin siyasi mübarizə formalarının, xüsusiyyətlərinin təhlili vacib məsələdir.

**ƏDƏBİYYAT**

1. Американская социология: перспективы, проблемы, методы, М.: Прогресс, 1972, 392 с.
2. Бурдье П. Социалогия политики. М.: Прогресс, 1993, с.271.
3. Гозман Л.Я., Шестопал Е.Б. Политическая психология. Ростов-на-Дону: Феникс, 1996, 448 с.
4. Горский А.А., Пушкарев Л.Н. Мировосприятие и самосознание русского общества (XI-XX вв.). М.: Наука, 1994, 246 с.
5. Гуревич А.Я. Уроки Люсьена Февра // В приложении к работе. «Л.Февр, Бои за историю» М.: Наука, 1996, 300 с.
6. Лесная Л.В. Менталитет и ментальные основания общественной жизни // «Соц-гуман. Знания», 2001, №21, с.133-146.
7. Лихачев Д.С. Нельзя уйти от самого себя «Историческое самосознание и культура России»// Новый мир, 1994, № 6, с. 113-120.
8. Лурье С.В. Историческая этнология. М.: Аспект-Пресс 1998, 448 с.
9. Менталитет. Политология // Энциклопедический словарь. М.: Аспект Пресс, 1993, 431 с.
10. Современная Западная философия: Словарь. М.: Преспект, 1991, 414 с.
11. Усенко О.Г. К определению понятия «менталитет». М.: Аспект-Пресс, 1994, 296 с.
12. Яшбург Е.А. Педогогическая философия // Мир образования. 1996, № 6, с. 43-59.

13. Thurstone L.L. The nature of intelligenie. N. R. Harcont Brace and Company. Benedict R. Rsychoanalysis and Antropogy: Culture, Persenality and Unconsehiour – New York. 1950 p. 3

## «КУЛЬТУРА И МЕНТАЛИТЕТ» КАК СОЦИАЛЬНО-ФИЛОСОФСКАЯ ПРОБЛЕМА

С.Г.АЛИЕВА

### РЕЗЮМЕ

С целью выявить социально-философическую суть менталитета в теоретико-методологическом контексте, рассматривается. «культура, как социальное понятие». В данной статье исследованы ментальные черты народов отражаемые в национальных культур.

**Ключывые слова:** релятивизм, абсолютизм, универсализм, интроверт, инновация, общество кононство

## THE DIALECTİCS OF “CULTURE AND MENTALITY” AS A SOCIAL AND PHILOSOPHICAL PROBLEM

S.H.ALIYEVA

### SUMMARY

For the purpose of explaining social and philosophical essence of mentality, we consider that it is very important to elucidate the problem of “culture as a social conception” which is of great methodological importance. According to the investigation, we come to the conclusion that the majority of mental signs that differentiate people from one another are social and cultural elements playing adequate role in their cultural life.

**Key words:** absolutism, universalism, introvert, canonic society, innovation